

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (21.185)

18 fevral 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Viktoriya Nulandın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafından razılıq ifadə olundu, Azərbaycan-ABŞ əməkdaşlığı yüksək qiymətləndirildi. Söhbət zamanı ölkələrimizin enerji, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, Əfqanıstanla bağlı əməkdaşlığının perspektivləri, insan hüquqları, demokratik təsisatlar, bu istiqamətdə dialoqun aparılması və digər məsələlər müzakirə edildi.

Görüşdə eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, bölgədə gərginliyin aradan qaldırılması, danışıqların davam etdirilməsi, regionda sülh və sabitliyin təmin olunması ilə bağlı məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

# Ötən ilə uğurla yekun vurulub



***Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ötən il görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları öz işlərini “Muxtariyyət ili”ndə qarşıya qoyulmuş yüksək tələblər səviyyəsində qurmağa çalışıb. Belə ki, Naxçıvan Muxtar Respublikası prokurorluq orqanlarında xidmət edən əməkdaşların iştirakı ilə muxtar respublikanın 90 illik yubileyinə həsr olunmuş seminar-məşğələlər keçirilib. 2014-cü ilin dekabr ayında Azərbaycan Respublikasında və eləcə də Naxçıvan Muxtar Respublikası ərazisində keçirilən bələdiyyə seçkilərində muxtar respublika prokurorluq işçiləri də öz səlahiyyət hədləri çərçivəsində bu seçkinin ədalətli, demokratik, şəffaf və seçicilərin fəallığı şəraitində keçirilməsi üçün bütün qüvvələrini səfərbər ediblər.

Səbuhi Şahverdiyev 2014-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülən işlərdən də danışıb. Bildirilib ki, 2014-cü ildə muxtar respublika ərazisində qeydə alınan cinayətlərin açılması tam təmin edilib.

2014-cü ildə peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı muxtar respublika ərazisində cinayət hadisəsi qeydə alınmayıb.

Vətəndaşların müraciətlərinə baxılması sahəsində hesabat ilində müəyyən işlər görülüb. Belə ki, muxtar respublikanın prokurorluq orqanlarına vətəndaşlardan 22 ərizə, şikayət və digər müraciətlər daxil olub. Onlardan 6-sı prokurorluqda həll edilib, 12-si digər təşkilatlara göndərilib, 4 müraciət isə istintaq olunan cinayət işinə əlavə edilib. Hesabat dövrünün sonuna qalıq qalan müraciət olmayıb. Həll edilən 6 müraciətdən 4-ü vətəndaşların konstitusion hüquqları, 2-si digər məsələlərlə əlaqədar olub.

Hesabat dövründə prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 891 halda təbliğat aparılıb, kütləvi informasiya vasitələrində 365 dəfə, o cümlədən televiziyada 103, radioda 29, mətbuatda isə 233 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Prokurorluq əməkdaşları tərəfindən yerlərdə əhali ilə görüşlər keçirilib, əhalinin hüquqi maarifləndirilməsi ilə əlaqədar profilaktik tədbirlər davam etdirilib.

Sonda qeyd olunub ki, prokurorluq əməkdaşları 2015-ci ildə də üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq, bundan sonra da cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

* * *

AMEA Naxçıvan Bölməsində keçirilən tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq məruzə ilə çıxış edib. Bildirib ki, 2014-cü ildə AMEA Naxçıvan Bölməsində 83 mərhələdə elmi-tədqiqat işləri aparılıb. Ötən il bölmə əməkdaşlarının 22 monoqrafiya, 7 kitab, 1 dərs vəsaiti, 468 məqalə və konfrans materialı, 3 tezisi olmaqla, 501 elmi əsəri nəşr edilib. Əsərlərdən 3 monoqrafiya, 1 kitab, 169 məqalə və konfrans materialı xaricdə işıq üzü görüb.

Bölmə sədrinin sözlərinə görə, bölmə əməkdaşları 1 beynəlxalq, 2 respublika patenti və 2 müəlliflik şəhadətnaməsi alıblar.

Bildirilib ki, hesabat ilində AMEA Naxçıvan Bölməsi əməkdaşlarından 4 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib, 7 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün hazırladığı dissertasiyası müzakirədən keçərək müdafiəyə buraxılıb.

Vurğulanıb ki, ötən il bölmə əməkdaşlarından 1 nəfər AMEA-nın həqiqi üzvü, 3 nəfər AMEA-nın müxbir üzvü seçilib, 1 nəfər professor, 13 nəfər dosent elmi adı alıb. Əməkdaşlardan 8 nəfər doktoranturaya (3 elmi işçi elmlər doktoru hazırlığı üzrə, 5 elmi işçi fəlsəfə doktoru hazırlığı üzrə) qəbul olunub, mövzuları təsdiq edilərək elmi rəhbər və elmi məsləhətçilər müəyyənləşdirilib. Hazırda bölmədə 23 doktorant (14 fəlsəfə doktoru, 9 elmlər doktoru hazırlığı üzrə), 25 dissertant (15 fəlsəfə doktoru, 10 elmlər doktoru hazırlığı üzrə) müvafiq dissertasiya mövzuları üzərində elmi tədqiqatlar aparırlar.



İldən-ilə bölmənin maddi-texniki bazasının dövlət qayğısı hesabına gücləndiyini deyən akademik İsmayıl Hacıyev keçirilən elmi tədbirlərdən də bəhs edib. Qeyd olunub ki, 2014-cü ildə 1 beynəlxalq, 20 respublika səviyyəli konfrans, 40 seminar keçirilib.

Bölmə sədri 2015-ci ildə qarşıda duran vəzifələrdən də danışıb.

Sonra çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Bəxtiyar İsmayılov açıb.***



Qeyd olunub ki, ötən il komitə fəaliyyətini gücləndirib, dövlət proqramlarının qarşıya qoyduğu vəzifələr, sessiya və müşavirələrdə verilmiş tapşırıqlar uğurla icra olunub.

“Standartların tələblərinə uyğun olmayan 57039,05 manat dəyərində məhsul satışdan çıxarılıb, 30911,45 manat dəyərindəki məhsul məhv edilib, 23097,2 manat dəyərində məhsul təsərrüfatda yem məqsədilə aid strukturlara təhvil verilib, 3030,4 manat dəyərində məhsul isə istehlakçı və idxalçı müəssisələrə geri göndərilib”, – deyən komitə sədri kollegiya iştirakçılarının nəzərinə çatdırıb ki, komitənin 2014-cü il üzrə iş planına uyğun olaraq, keyfiyyətin idarə edilməsi istiqamətində 12 təsərrüfat subyektində dövlət nəzarəti həyata keçirilib, 11 təsərrüfat subyektində nöqsanlar aşkar olunaraq operativ qaydada aradan qaldırılıb.

Qeyd olunub ki, 2014-cü ildə 810 ədədi ərzaq, 2450 ədədi qeyri-ərzaq olmaqla, 3260 ədəd məhsula uyğunluq sertifikatı verilib. 139 müəssisəyə istehsal etdiyi sabit keyfiyyətli 260 adda məhsula AZS Milli Sertifikatlaşdırma Sisteminin “Uyğunluq nişanı”ilə nişanlamaq hüququ verilib. Həmçinin standartlaşdırma fondunun zənginləşdirilməsi məqsədilə 59 ədəd yeni təsdiq olunmuş dövlət standartı, 10 ədəd türk standartı, 1 ədəd təsnifat, dövlət qeydiyyatından keçmiş 10 ədəd texniki şərt və 2 texniki şərtə edilmiş dəyişiklik, Azərbaycan Respublikası ərazisində tətbiqinə icazə verilən 24 ədəd beynəlxalq standart, 30 ədəd Avropa standartı və 1 ədəd Rusiya Federasiyası milli standartı fonda daxil edilib, 6 dövlət standartı ləğv edildiyindən fonddan çıxarılıb.

Komitə metrologiya xidməti üzrə də fəaliyyətini gücləndirib, 1325 təsərrüfat subyektində 63 min 330 ədəd (12388 ədədi dövlət, 50942 ədədi qeyri-dövlət sektoru üzrə) ölçmə vasitəsi müqayisəli yoxlamadan keçirilib. Bəhs olunan dövrdə komitəyə ixtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin mühafizəsi üzrə 133 müraciət daxil olub. Hazırda bunların ekspertizası davam etdirilir. 134 təsərrüfat subyektində istehlakçının seçmə sərbəstliyinə təsir göstərən 225 halda qanunsuz reklam üsullarından istifadə hallarının qarşısı alınıb. Əmtəə nişanlarının mühafizəsinə dair 67 ədəd şəhadətnamə və sənaye nümunələrinin mühafizəsinə dair 9 ədəd patent verilib. 35 laboratoriyada akkreditasiya işləri aparılıb və attestatlar verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə çıxış edərək qarşıda duran vəzifələrdən danışıb.

* * *

***Sədərək Rayon İcra Hakimiyyətində ötən ilin yekunlarına və 2015-ci ildə qarşıya qoyulan vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq məruzə ilə çıxış edib.***



Qeyd olunub ki, yola saldığımız 2014-cü ildə də abadlıq-quruculuq işləri yüksək ahənglə davam etdirilib. Keçən ilin yanvar ayında əsaslı təmir olunan və yenidən qurulan Sədərək kənd 1 nömrəli tam orta məktəbin binası qapılarını müəllim və şagirdlərin üzünə açıb.

Sərhəd bölgəsində tikinti-quruculuq işləri bununla məhdudlaşmayıb. 2014-cü ildə 1500 hektar sahəni suvarmaq üçün Araz çayından qidalanan Şir arxının üzərində yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti, rayon Təhsil və Torpaq şöbələri üçün inzibati binalar da ötən ilin quruculuq ərməğanlarından olub. Sədərəkdə ən mühüm layihələrdən biri də içməli su və kanalizasiya sisteminin qurulmasıdır. Rayon ərazisində sahilbərkitmə işləri də davam etdirilir.

Əsasən, aqrar rayon olan Sədərəkdə kənd təsərrüfatının inkişafı diqqət mərkəzində saxlanılıb, 3574 hektar sahədən kənd təsərrüfatı məhsulları toplanılıb.

“Təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə də müəyyən uğurlar əldə edilib”, – deyən Həbib İbrahimov əlavə edib ki, ötən il 4 tam orta məktəbi bitirmiş 35 nəfər məzun ali məktəb tələbəsi adını qazanıb.

Rayon ərazisində əhalinin keyfiyyətli elektrik enerjisi ilə təmin olunması və enerji itkisinin qarşısının alınması məqsədilə xətt təsərrüfatlarında, transformator yarımstansiyalarında təmir işləri aparılıb, 6 yeni abonent elektrik enerjisi ilə təmin olunub. Bununla yanaşı, təbii qazla təminat və qaz xətlərinin təmiri ilə əlaqədar görülən işlərin keyfiyyəti artırılıb, 24 fərdi yaşayış mənzilinə qaz xətti çəkilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyənlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytına ***(www.dqmk.nmr.az)*** daxil olmaqla elektron müraciət formasını doldurmalı və tələb olunan sənədləri 18 fevral 2015-ci il tarixdən 18 mart 2015-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) şəxsən təqdim etməklə elektron ərizələrini (həftənin iş günləri saat 09$^{00}$-dan 12$^{30}$-dək və 14$^{00}$-dən 17$^{30}$-dək) təsdiq etdirməlidirlər.

**Vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- şəxsiyyəti təsdiq edən sənəd
- ali təhsil haqqında sənədlər
- əmək kitabçası və ya surəti (olduğu təqdirdə)
- 1 ədəd ağ fonda rəngli fotoşəkil (3x4 sm ölçüdə)

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

**Qeyd:** *Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.*

***Əlavə məlumat almaq üçün: e-mail:* www.dqmk@nakhchivan.az**

**Telefon: 545-65-71**

| Dövlət orqanı və struktur bölmənin adı | Ştat sayı | Təsnifat | Vəzifənin adı |
|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| Bioloji sərvətlərin bərpası, artırılması və hesaba alınması sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| Təbii sərvətlərdən istifadənin tənzimlənməsi sektoru | 1 | 6 | məsləhətçi |
| Ekoloji ekspertiza və monitorinq sektoru | 1 | 6 | aparıcı məsləhətçi-ekspert |
| Ekoloji ekspertiza və monitorinq sektoru | 1 | 6 | məsləhətçi-ekspert |
| Meşələrin bərpası, mühafizəsi və meşəsalma sektoru | 1 | 6 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Culfa rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Kəngərli rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **13** | | |
| **2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | məsləhətçi |
| Əmək münasibətləri və əməyin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| **2.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | |
| Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 3 | 7 | məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 1 | 7 | məsləhətçi |
| Operativ nəzarət və informasiya sektoru. Əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Ümumi işlər və maliyyə-təsərrüfat sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **2.2. Dövlət Məşğulluq Xidməti** | | | |
| Əmək bazarının təhlili və statistika sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Əmək birjası sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 2 | 7 | baş məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| **2.3. Dövlət Sosial Təminat Xidməti** | | | |
| Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sosial xidmətin təşkili və sosial proqramlar sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 3 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| **Cəmi:** | **49** | | |
| **3. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| Ərazi orqanları ilə iş və kadrlar şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **10** | | |
| **4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi** | | | |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi. Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | baş məsləhətçi |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi. Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| İqtisadi təhlil və proqnozlaşdırma şöbəsi. Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | məsləhətçi |
| Sənaye şöbəsi. Sənaye sahələri və təhlili sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Sənaye şöbəsi. Sənaye parkları sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| İnvestisiya təşviqi və ixraca dəstək şöbəsi. İnvestisiya təşviqi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Rəqabətin qorunması sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Rəqabətin qorunması sektoru | 1 | 6 | məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. İstehlak bazarına nəzarət və istehlakçıların hüquqlarının müdafiəsi sektoru | 2 | 6 | aparıcı məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. İstehlak bazarına nəzarət və istehlakçıların hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Monitorinq və analitik təhlil sektoru | 1 | 6 | məsləhətçi |
| Rəqabətin qorunması və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsi. Təbii inhisarlar və dövlət inhisarına aid xidmətlərin tənzimlənməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | məsləhətçi |
| Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsi. Dövlət əmlakının idarə olunması, qorunması və səmərəli istifadəsinə nəzarət sektoru | 1 | 6 | baş məsləhətçi |
| Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsi. Dövlət əmlakının idarə olunması, qorunması və səmərəli istifadəsinə nəzarət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Dövlət əmlakının idarə olunması, özəlləşdirilməsi və cəmiyyətlərlə iş şöbəsi. Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və cəmiyyətlərlə iş sektoru | 2 | 6 | aparıcı məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **21** | | |

| | | | |
|---|---|---|---|
| **5. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | |
| Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| Poçt rabitə şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi. Elektron təhlükəsizlik üzrə | 1 | 6 | baş məsləhətçi |
| Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi. Elektron təhlükəsizlik üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| Telekommunikasiya şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **5** | | |
| **6. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Ordubad Rayon Təhsil Şöbəsi | 2 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | məsləhətçi |
| Culfa Rayon Təhsil Şöbəsi. Kadrlar üzrə | 1 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Şahbuz Rayon Təhsil Şöbəsi. Kadrlar üzrə | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **12** | | |
| **7. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi** | | | |
| Tibbi yardımın təşkili şöbəsi. Ginekoloq | 1 | 6 | baş məsləhətçi |
| Kadrlar, elm və təhsil sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Tibbi statistika və informatika sektoru. Tibbi statist | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **3** | | |
| **8. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| Naxçıvan Şəhər Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Maliyyə Şöbəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **4** | | |
| **9. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi** | | | |
| Mədəniyyət, mədəni irs və incəsənət şöbəsi. Kitabxana işi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| Turizm şöbəsi. Daxili turizmin inkişafı üzrə | 1 | 6 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Babək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **7** | | |
| **10. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| Texniki nəzarət və aqroservis sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **11. Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** | | | |
| Suvarma sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | məsləhətçi |
| Layihə-ekspertiza şöbəsi | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **4** | | |
| **12. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | |
| Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **13. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi** | | | |
| Şərur Rayon Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Statistika İdarəsi. Baş mühasib | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Statistika İdarəsi | 2 | 7 | məsləhətçi |
| Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **9** | | |
| **14. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** | | | |
| Ümumi işlər və kadrlar sektoru | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | **1** | | |

| | | | |
|---|---|---|---|
| **15. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu** | | | |
| Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| Gəlirlər sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Fərdi uçotun təşkili sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 2 | 7 | məsləhətçi |
| Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Şərur Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Culfa Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Şahbuz Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| **Cəmi:** | **20** | | |
| **16. Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondu** | | | |
| Sahibkarlığın inkişafı, investisiya layihələrin ekspertizası və monitorinqi sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Maliyyə sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **17. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti** | | | |
| Ümumi işlər və kadr sektoru | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **18. Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti** | | | |
| Baytarlıq nəzarəti və müfəttişlik sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Xüsusi təhlükəli xəstəliklərə qarşı mübarizə şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **19. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası** | | | |
| Ekspertiza, proqramlaşdırma və lisenziya sektoru. Ekspertiza, proqramlaşdırma və lisenziya üzrə | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **20. Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi** | | | |
| Aparatda | 1 | 7 | baş məsləhətçi |
| Aparatda | 1 | 7 | aparıcı məsləhətçi |
| Aparatda | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **3** | | |
| **21. Naxçıvan Şəhər İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 2 | 7 | baş məsləhətçi |
| İstehsalat və xidmət sahələri sektoru | 1 | 7 | böyük məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 3 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 4 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **11** | | |
| **22. Şərur Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Zootexnik | 1 | 7 | baş məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Xanlıqlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Axaməd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Siyaqut kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Kosacan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |

| | | | |
|---|---|---|---|
| Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Alışar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Cəlilkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Tənənəm kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Zeyvə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Xələc kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Kürçülü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **23** | | |
| **23. Babək Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Aqronom | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Hacıvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Babək qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Didivar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Şıxmahmud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qoşadizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **16** | | |
| **24. Ordubad Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Zootexnik | 1 | 7 | böyük məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi. Kadrlar üzrə işin aparıcısı | 1 | 7 | məsləhətçi |
| Bist kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Aşağı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Azadkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Vənənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Xurs kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Düylün kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Üstüpü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Sabirkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Bist kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Gənzə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **26** | | |
| **25. Culfa Rayon İcra Hakimiyyəti** | | | |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| Xanəgah kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Camaldın kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Göydərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Camaldın kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Göydərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qazançı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Teyvaz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **14** | | |
| **26. Şahbuz Rayon İcra Hakimiyyəti** | | | |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Aşağı Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Badamlı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Şahbuzkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Türkeş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Nursu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Kolanı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Mahmudoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **15** | | |
| **27. Kəngərli Rayon İcra Hakimiyyəti** | | | |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qabıllı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Xıncab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Yurdçu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **10** | | |
| **28. Sədərək Rayon İcra Hakimiyyəti** | | | |
| Aparatda | 1 | 7 | baş mühasib |
| Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 2 | 7 | baş məsləhətçi |
| Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| Aqrar məsələlər şöbəsi. Zootexnik | 1 | 7 | böyük məsləhətçi |
| Sənədlər və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| **Cəmi:** | **14** | | |
| **29. Məhkəmə orqanları** | | | |
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi. Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsi. Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| Naxçıvan Şəhər Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Babək Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Babək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Culfa Rayon Məhkəməsi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Ordubad Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| Sədərək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **14** | | |
| **Ümumi cəmi:** | **314** | | |

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 151